# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ ABŞ, BÖYÜK BRİTANİYA VƏ TÜRKİYƏ TELEKANALLARININ MATERİALLARI ƏSASINDA

**Pərvanə İbrahimova**

*BDU, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*
*e-mail: pervanei@mail. ru*

**Xülasə**

*Məqalədə İkinci Qarabağ müharibəsindən, Azərbaycanın beynəlxalq arenada apardığı informasiya siyasətindən, ölkənin yalnız hərbi sahədə deyil, eyni zamanda, diplomatik arenada və informasiya müharibəsində birmənalı qələbəsindən bəhs edilir. Məqalədə həbelə ABŞ, Böyük Britaniya və Türkiyə telekanallarının Vətən müharibəsi ilə bağlı təqdim etdikləri materiallar, o cümlədən Prezident İlham Əliyevin Türkiyə mediasına, "CNN International", "Fox News", "BBC news", "Sky news" telekanallarına verdiyi müsahibələr təhlil edilir, müharibə başlayan gündən obyektiv, həqiqəta söykənən mövqeyi ilə ölkəmizə tam və birmənalı informasiya dəstəyi verən Türkiyə mediasından fərqli olaraq, ABŞ və Böyük Britaniya telekanallarının qərəzli yanaşması nəzərdən keçirilir.*

***Açar sözlər:*** *Qarabağ, informasiya, "CNN International", "Fox News", "BBC news", "Sky news"*

2020-ci il 27 sentyabr tarixində başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində Azərbaycan dünyanın transmilli media orqanlarını, aparıcı informasiya agentliklərini və telekompaniyalarını informasiya ilə təmin etmiş, həmin resurslarla münaqişəyə münasibətdə nümayiş etdirdikləri qərəzli

yanaşmaya rəğmən əməkdaşlığı kəsməmiş, ölkənin haqlı mövqeyini bu platformalardan istifadə etməklə bütün dünyaya çatdırmışdır. Birtərəfli və qeyri-obyektiv münasibəti ilə seçilən ABŞ və Qərb mediasından fərqli olaraq, Türkiyə mediası müharibə başlayan gündən obyektiv və həqiqətə söykənən mövqeyi ilə ölkəmizə birmənalı informasiya dəstəyi vermiş, Şuşanın işğaldan azad edilmə xəbərini "Qarabağın ürəyinə azadlıq" [6] manşeti ilə tirajlamaqla sevincini Azərbaycan əsgəri və xalqı ilə birlikdə yaşamışdır. Anadolu Agentliyi, "Hürriyet", "Milliyet", "Sabah", "Takvim" və digər populyar qəzetlər, əsas televiziya kanalları prosesləri son dərəcə diqqət və həssaslıqla izləmiş, müxtəlif formatlarda təqdim etdiyi materiallarda obyektiv mövqe və ədalətli yanaşma sərgiləmişlər.

Prezident İlham Əliyevin ayrı-ayrı vaxtlarda Türkiyənin "TRT Haber", "Haber Türk", "A Haber", "CNN-Türk", "Haber Global", NTV televiziya kanallarına verdiyi müsahibələrin Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılmasında böyük əhəmiyyəti olmuşdur. Prezident İlham Əliyev "CNN-Türk" televiziya kanalına verdiyi müsahibədə Türkiyənin Azərbaycan üçün güclü müttəfiq, tərəfdaş və qardaş ölkə olduğunu bəyan edərək bütün bölgələrdə Türkiyə və Azərbaycan bayraqlarının bir yerdə dalğalandığını, bunun əsl qardaşlıq, həmrəylik rəmzi olduğunu söyləmiş, Azərbaycanı Türkiyə, Türkiyəni də Azərbaycan qədər dəstəkləyən ikinci ölkənin olmadığına diqqət çəkərək bunun böyük sərvət olduğunu bildirmişdir [2].

Azərbaycanın haqq işinə tam dəstək verən qurumlardan biri də doğru və operativ xəbər vermək devizi ilə çalışan «Haber Global» olmuşdur. Gənc və perspektivli kanal olaraq Vətən müharibəsinin ilk anından cəbhənin ən qaynar nöqtələrində peşəkar və fədakar heyətlə Azərbaycanın haqq səsini beynəlxalq ictimaiyyətə çatdırmağa çalışmış, dünyanın nəhəng media qurumlarını, nüfuzlu agentliklərini bir çox hallarda informasiya və görüntülərlə təmin etmişdir [2]. Kanalın direktoru Məhəmməd Gülməmmədovun qeyd etdiyi kimi, "Türkiyədəki xəbər mərkəzimiz və texniki heyətimiz gecə-gündüz, 24 saat böyük əzmlə və peşəkarlıqla canlı yayım həyata keçirdilər, Türkiyə telekanallarına konsaltinq xidməti verdilər. Cənab Ali Baş Komandanımız İlham Əliyevin siyasi iradəsi və ordumuzun tarixi qəhrəmanlığı 30 illik həsrətə və utanca son qoydu! Bu tarixi anlara şahidlik etmək həyatımızın ən yaddaqalan hadisəsi kimi yaddaşlarımıza həkk olundu. Ancaq bilməliyik ki, informasiya müharibəsi bitməyib və heç vaxt da bitməyəcək. "Haber Global" olaraq biz də Türk dünyasının səsi olmağa davam edəcəyik!» [1]. Bir sözlə, bu kanal dünyanın aparıcı informasiya resursları ilə səmərəli əməkdaşlıq əlaqələri quraraq erməni vəhşiliyini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqla bir tarix yazmışdır.

ABŞ, Avropa və Rusiyanın qərəzli yanaşma sərgiləyən bəzi media qurumları ilə müqayisədə Türkiyə mediasının hadisələrə obyektiv yanaşması böyük əhəmiyyət kəsb etmişdir. İkinci Qarabağ müharibəsi, onun inkişaf prosesi və nəticəsi uzun müddət Türkiyə mətbuatının, o cümlədən fərqli televiziya proqramlarının əsas müzakirə mövzusu olmuşdur. Araşdırmaçı jurnalist N. Salamovun "İkinci Qarabağ savaşı" kitabından məlum olur ki, Habertürk TV-də Kübra





Parın "Açık və Net", Eren Eğilmezin "Gerçek fikir ne?", CNN Türk TV-də Semiha Şahinin "CNN Türk masası", Ahmet Hakanın "Tarafsız Bolge" proqramlarında Qarabağ məsələsi, Vətən müharibəsi ilə bağlı maraqlı diskussiyalar, fikir mübadilələri edilmişdir [7, 114].

Dünya gündəmini müəyyən edən ABŞ-ın nəhəng "CNN International" televiziya kanalı Vətən müharibəsinə çox geniş yer ayırmışdır. Kanalın 2020-ci ilin 27-28 sentyabr tarixlərində dərc olunmuş "Ermənistanla Azərbaycan arasında mübahisəli bölgəyə görə qarşıdurmalar başlayır" [18], "Ermənistan və Azərbaycan mübahisəli bir bölgə üstündə toqquşur. Bilməli olduğunuz şey budur" [14] araşdırmalarında hər iki tərəfin fikirləri ilə bağlı xəbərlər olsa da, Dağlıq Qarabağ bölgəsinin mübahisəli ərazi kimi təqdim edilməsi beynəlxalq hüquq baxımından yanlış yanaşmadır. Başqa bir yazıda isə suriyalı etirazçıların Ermənistan-Azərbaycan müharibəsində iştirak etməyə hazırlaşdığı, CNN-in bu döyüşçülərlə şəxsən görüşdüyü, Türkiyə-Suriya sərhəddi yaxınlığındakı Havar Kilis bölgəsində könüllülərin gözlədiyi barədə məlumatlar verilsə də, bunlar sübuta yetirilməmişdir [10]. Kanalın əməkdaşı Nick Paton Walsh 2020-ci il oktyabrın 5-də "Rusiya Ermənistan-Azərbaycan münaqişəsini dayandırmağa qadir olan yeganə ölkədir. Qalxacaqmı və bunu edəcəkmi?" başlıqlı materialında Rusiya-Türkiyə münasibətləri, Ermənistanın baş naziri N. Paşinyanın Avropa İttifaqına yaxınlaşması, Rusiyanın Liviya, Suriya, Ukrayna və Belarusiyadakı hadisələrlə əlaqəsi və Dağlıq Qarabağdakı krizisə resurs və həvəsinin qalib-qalmaması və Türkiyənin daha aktiv mövqeyini araşdırmışdır [15].

Tədqiqatçı V. Zahidqızının 2020-ci il 14 dekabr tarixində APA İnformasiya Agentliyində yayımlanan "İkinci Qarabağ Müharibəsi: Qərb və Rusiya mediasının yanaşması" adlı məqaləsində qeyd edildiyi kimi, "2020-ci il oktyabrın 5-dən sonra "CNN International"da yayımlanan yazılar daha çox Azərbaycanda Gəncə, Bərdə və Tərtərə edilən hücumlar, dinc sakinlər arasında ölüm və yaralıların olması, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Mişel Baçeletin bunu təsdiq etməsi, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin bu müharibə cinayəti haqqında məlumatları, Türkiyənin Yaxın Şərqdə artan nüfuzu, İranın mövqeyi, atəşkəs bəyanatları və onlara əməl olunmaması haqqında olmuşdur. Eyni zamanda CNN-in məşhur aparıcısı Kristian Amanpur ABŞ-ın NATO-dakı keçmiş səfiri Ivo Daalder və Ermənistanın keçmiş Xarici İşlər Naziri Zöhrab Mnatsakanyanla müsahibədə münaqişəni müzakirə etmişdir. İvo Daalder münaqişənin 90-cı illərdəki tarixindən məlumat vermiş, Türkiyənin aktiv iştirakı, Rusiya ilə Türkiyə arasındakı konfrontasiya kimi nüanslara toxunmuşdur" [5].

Prezident İlham Əliyev 2020-ci il oktyabrın 9-da "CNN International" televiziya kanalının «The Connect World» verlişinə müsahibə vermiş, jurnalistin fakta əsaslanmayan, qərəzli suallarına tutarlı, dolğun cavab verərək Azərbaycanın heç bir xarici hərbi qüvvədən istifadə etmədiyini birmənalı şəkildə bildirmiş, vaxtilə Ermənistanın Azərbaycan ərazilərini xarici havadarlarının köməyi ilə işğal etdiyini qeyd edərək, bir daha dünya ictimaiyyətini məlumatlandırmış, jurnalisti fakt qarşısında qoymuşdur [3].

Vətən müharibəsində yaşadıqları xarici ölkələrdə erməni təcavüzünə və Azərbaycan ərazilərinin işğalına qarşı nümayişlər edən azərbaycanlı diaspor fəalları yerli media resurslarının diqqətini çəkə bilmişlər. 2020-ci il 4 noyabr tarixində San-Fransiskodakı azərbaycanlı icma üzvlərinin nümayişi Amerikanın "CBS" kanalında göstərilmişdir. Yürüşün təşkilatçısı Nərmin Babayeva telekanala müsahibəsində demişdir: "KİV-lər ermənilərin etirazlarını işıqlandırırlar, lakin bizim etiraz aksiyamız az halda işıqlandırılır". Aksiya iştirakçıları bəyan ediblər ki, 1991-ci ildən başlayaraq ermənilər azərbaycanlıları Dağlıq Qarabağ regionundan sıxışdırıb çıxararaq, regionda etnik təmizləmə aparırlar: "Biz istəyirik ki, Azərbaycan torpaqlarını işğal edən erməni ordusu bu ərazilərdən çəkilsin, münaqişəyə qədər orada yaşayan azərbaycanlılar öz doğma yurdlarına qayıtsınlar" [20]. Süjetdən, nümayişçilərin etiraz çıxışlarından və çoxsaylı materialların təhlillərindən də görünür ki, ABŞ mediası müharibə mövzusunun işıqlandırılmasında jurnalistikanın prinsiplərini pozmuş, birtərəfli informasiya ilə tərəfkeşlik nümayiş etdirmişlər.

ABŞ-ın "Fox News" televiziya kanalı da 44 günlük İkinci Qarabağ müharibəsinə geniş yer ayırmışdır. 2020-ci il sentyabrın 29-da foxnews. com saytında "Ermənistan və Azərbaycan arasında onilliklərdir davam edən münaqişədə gərginliyin artması nəticəsində onlarla insan həlak olur" başlıqlı məqalədə Dağlıq Qarabağın tarixi, işğal faktı, sivillərin öldürülməsi, Türkiyənin Azərbaycana dəstəyi və qardaş ölkənin xarici işlər naziri M. Çavuşoğlunun jurnalistlərə açıqlaması, Azərbaycanın Müdafiə Nazirliyinə istinadən Daşkəsən rayonunun atəşə tutulması və Ermənistan tərəfinin əks arqument səsləndirməsini verməklə balans yaratmağa çalışması diqqətdən yayınmır [8].

Prezident İlham Əliyevin 2020-ci il oktyabrın 25-də bu informasiya resursuna müsahibə vermişdir [4]. Jurnalistin müharibəni ilkin olaraq hansı tərəfin başlaması məsələsinə aydınlıq gətirmədən, Azərbaycanın hücum edən tərəf olduğunu iddia etməsi, birbaşa ittihama keçərək qərəzli, açıq hücum xarakteri daşıyan suallarına dövlət başçısı tutarlı, məntiqli və dolğun cavabları ilə beynəlxalq təşkilatların, vasitəçilərin yürütdüyü ikibaşlı siyasəti, "ikili standart"ları ifşa etmiş, Qarabağ münaqişəsi ətrafındakı son vəziyyəti geniş auditoriyaya çatdırmış, ermənilərin işğalçı mahiyyəti bir daha bütün dünyaya nümayiş etdirilmişdir.

Böyük Britaniya mediası, o cümlədən dünya gündəmini müəyyən edən "BBC news" informasiya kanalı 44 günlük Qarabağ müharibəsinə geniş yer ayırmışdır. Kanal, hətta onun Azərbaycan nümayəndəliyi sözügedən müharibə və onun həqiqətlərini yayarkən jurnalistikanın prinsiplərinə əməl etməmiş, birtərəfli mövqe nümayiş etdirmiş, materiallarında Dağlıq Qarabağı mübahisəli və ermənilərin çoxluq təşkil etdiyi anklav kimi təqdim etmişlər. Aparıcı Ros Atkinsin 2020-ci il oktyabrın 2-də təqdim etdiyi proqramda ABŞ, Rusiya və Fransanın təkidlərinə baxmayaraq, hər iki tərəfin "mübahisəli" ərazi olan Qarabağda münaqişəyə son qoymamalarından, məsələnin regional konfliktə keçəcəyi xəbərdarlığından danışmışdır [5].





BBC-nin müxbiri Jonah Fisher "Dağlıq Qarabağ: mübahisəli ərazi atəş altında" adlı videoreportajında [11] ancaq 78 yaşlı erməni təqaüdçüsünün fikirlərini verməklə birtərəfli mövqe göstərmişdir. Oxşar yanaşmanı Olga İvshinanın "Dağlıq Qarabağ: müharibə nəticəsində yetim qalan üç yaşlı uşaq" adlı materialında da görmək mümkündür. Materialda Ermənistan silahlı qüvvələrinin Gəncəyə raket hücumu nəticəsində üç yaşlı Xədicənin anası, atası və böyük bacısının həlak olmasına diqqət çəkilsə də, Dağlıq Qarabağ mübahisəli ərazi kimi qeyd olunmuş və tərəflərin həmin əraziyə nəzarət uğrunda müharibə apardıqları bildirilmişdir [16]. Kanalın beynəlxalq müxbirləri Orla Querin, prodüser Zeynəb Erdim və operator Goktay Koraltanın Bərdədən hazırladıqları reportajda Azərbaycan həqiqətləri müəyyən qədər ifadə edilmişdir [9].

44 günlük müharibə dövründə Müzəffər Ali Baş Komandan kimi həm döyüş meydanında, həm də informasiya cəbhəsində qələbəmizi təmin edən Prezident İlham Əliyev 2020-ci il noyabrın 6-da "BBC news" televiziya kanalına müsahibə vermiş [12], jurnalistin qərəzli suallarını səbir, təmkin və tutarlı arqumentlərlə cavablandırmışdır. BBC-nin növbəti yazısı Azərbaycan üçün tarixi əhəmiyyət daşıyan Şuşa şəhərinin işğaldan azad olunması ilə bağlı olmuşdur. Yazıda Şuşada 1980-1990-cı illərdə daha çox azərbaycanlıların yaşaması, müharibə nəticəsində yüz minlərlə insanın qaçqın düşməsi ilə bağlı həqiqətlər yer almışdır [13].

Böyük Britaniyanın "Sky news" kanalı da İkinci Qarabağ müharibəsinə böyük maraq göstərmişdir. 2020-ci il sentyabrın 28 və 29-da "Azərbaycan-Ermənistan münaqişəsi: Putin Dağlıq Qarabağ toqquşmalarında mülki vətəndaşların həlak olması ilə bağlı döyüşləri dayandırmağa çağırıb" [17], "Azərbaycan-Ermənistan münaqişəsi: 1990-cı illərdən bəri ən şiddətli zorakılıq nəticəsində onlarla insan həlak olduğu toqquşmaların ikinci günü" [19] adlı materiallarda Dağlıq Qarabağ və beynəlxalq hüquqa görə Azərbaycanın tərkibində, lakin etnik cəhətdən ermənilərin yaşadığı separatçı bölgə kimi təqdim edilmişdir. Sky news"un İkinci Qarabağ müharibəsi ilə bağlı hazırladığı materiallarda Qarabağ mübahisəli ərazi kimi təqdim edilmiş, Azərbaycanın tarixi torpaqlarının adı təhrif olunmuş, Xankəndi, Xocavənd və Şuşa Stepanakert, Martuni, Şuşi kimi yazılmışdır.

Beləliklə, Böyük Britaniyanın nüfuzlu telekanalları, o cümlədən "BBC News" və "Sky News" İkinci Qarabağ müharibəsinə böyük maraq göstərmişlər. Lakin təqdim etdikləri materiallar əsasən birtərəfli xarakter daşımış, obyektivlik itirilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycana qarşı aparılan birtərəfli informasiya savaşı Prezident İlham Əliyevin fakt və sübutlarla zəngin sanballı müsahibələri ilə fiaskoya uğramışdır. 2020-ci il oktyabrın 9-da "Sky News" televiziya kanalına müsahibəsində Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər, tarixi həqiqətlər, Dağlıq Qarabağ münaqişəsinə dair vacib hüquqi və siyasi məqamlar ölkəmizin ədalətli mövqeyinin dünya ictimaiyyətinə çatdırılması baxımından olduqca əhəmiyyətli olmuşdur.

Araşdırılan mövzu üzrə gəlinən nəticəyə əsasən ABŞ və Böyük Britaniya telekanallarının İkinci Qarabağ müharibəsi dövründə təqdim etdikləri materiallar əsasən birtərəfli, qərəzli olmuş, jurnalistikanın prinsiplərini pozmuşdur.

Türkiyə mediası isə bütövlükdə obyektiv mövqe nümayiş etdirmiş, Azərbaycanın haqlı mövqeyini sistemli şəkildə beynəlxalq arenanın diqqətinə çatdırmış, informasiya savaşında qələbənin təmin edilməsində əsas dəstəkçi olmuşdur.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


### Azərbaycan dilində:

1. Gülməmmədov M. Twitter, 2020, 5 dekabr.
2. İbrahimova P., Zalova S. İkinci Qarabağ müharibəsi: Türkiyə mediasının yanaşması. Azərbaycan Dillər Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyasi" adlı IV Beynəlxalq elmi konfrans. Bakı, 2021.
3. Prezident İlham Əliyevin "CNN International" televiziya kanalının "Connect the World" verilişində müsahibəsi yayımlanıb. AzərTAc, 2020, 9 oktyabr.
4. Prezident İlham Əliyevin ABŞ-ın "Fox News" televiziya kanalına müsahibəsi. AzərTAc, 2020, 25 oktyabr.
5. Zahidqızı V. İkinci Qarabağ müharibəsi: Qərb və Rusiya mediasının yanaşması – təhlil". APA, 2020, 14 dekabr.

### Türk dilində:

6. Karabağ'ın Kalbine Özgürlük. Hürriyet, 2020, 9 noyabr.
7. Salamov N. İkinci Karabağ savaşı. İstanbul, 2021, 184 s.

### İngilis dilində:

8. Armenia, Azerbaijan fighting kills dozens as tensions mount in decades-old conflict. "Fox News", 2020, 29 sentyabr. https://www. foxnews. com/world/armenia-azerbaijan-clashes-continue-as-tensions-mount-in-decades-old-conflict
9. Greg Brosnan, Azerbaijan at war: Reporter's journal. BBC, 2020, 17 oktyabr. https://www. bbc. com/news/av/world-asia-54577561
10. Kareem Khadder, Gul Tuysuz, Tim Lister. Rebels from Syria recruited to fight in conflict between Azerbaijan and Armenia, source says. CNN, 2020, 1 oktyabr. https://edition. cnn. com/2020/10/01/middleeast/azerbaijan-armenia-syrian-rebels-intl/index. html
11. Nagorno-Karabakh: Under fire in disputed territory. BBC, 2020, 6 oktyabr. https://www. bbc. com/news/av/uk-54435855
12. Nagorno-Karabakh: President Ilham Aliyev speaks to the BBC. BBC, 2020, 9 noyabr. https://www. bbc. com/news/av/world-europe-54865589
13. Nagorno-Karabakh: Azerbaijan 'takes key town' in Armenia conflict. BBC, 2020, 8 noyabr. https://www. bbc. com/news/world-europe-54862180
14. Nick Paton Walsh. Armenia and Azerbaijan are clashing over a disputed region. Here's what you need to know. CNN, 2020, 27 sentyabr. https://edition. cnn. com/2020/09/28/europe/azerbaijan-armenia-clashes-explainer-intl/index. html
15. Nick Paton Walsh. Russia is the only country able to stop the Armenia-Azerbaijan conflict. Will it step up and do so? CNN, 2020, 5 oktyabr. https://edition. cnn. com/2020/10/05/europe/russia-armenia-azerbaijan-conflict-analysis-intl/index. html
16. Olga Ivshina. Nagorno-Karabakh: The three-year-old orphaned by war. BBC, 2020,







23 oktyabr. https://www. bbc. com/news/av/world-europe-54650502

17. Russell Hope. Azerbaijan-Armenia conflict: Putin calls for end to fighting as civilians killed in Nagorno-Karabakh clashes. "Sky news", 2020, 28 sentyabr.
18. Sullivan Rory, Hauser Jennifer. Clashes break out between Armenia and Azerbaijan over disputed region. CNN, 2020, 27 sentyabr. https://edition. cnn. com/2020/09/27/europe/armenia-azerbaijan-tensions-nagorno-karabakh-intl/index. html

### İnternet resursları:

19. https://news. sky. com/story/azerbaijan-armenia-conflict-second-day-of-clashes-as-dozens-killed-in-fiercest-violence-since-1990s-12084500
20. https://sanfrancisco. cbslocal. com/video/4837509-azerbaijan-armenian-conflict-plays-out-as-war-of-words-on-san-francisco-peninsula/


**Parvana İbraqimova**

## The second Karabakh war based on the materials of tv channels of the USA, Great Britain and Turkey


### Sammary

*The article discusses the Second Karabakh war, the information policy of Azerbaijan in the international arena, the country's unequivocal victory not only in the military field, but also in the diplomatic arena and in the information war. The article also analyzes the materials presented by the TV channels of the United States, Great Britain and Turkey regarding the Patriotic War, including the interviews given by President Ilham Aliyev to the Turkish media, CNN International, Fox News, BBC news, and Sky news and reviews the biased approach of US and UK television channels, in contrast to the Turkish media, which since the beginning of the war, have been providing full and unambiguous information support to our country with their objective, truth-based position.*


*Keywords: Karabakh, information, «CNN International», «Fox News», «BBC news», «Sky news»*

**Парвана Ибрагимова**

## Вторая Карабахская война по материалам телеканалов США, Великобритании и Турции


### Резюме

*В статье рассказывается о Второй Карабахской войне, ин-формационной политике Азербайджана на международной арене, о однозначной победе страны не только в военной сфере, но и на дипломатической арене и в информационной войне. В статье так-же анализируются материалы, представленные телеканалами США, Великобритании и Турции в связи с отечественной войной, в том числе интервью Президента Ильхама Алиева турецким СМИ, телеканалам «CNN International», «Fox News», «BBC news», «Sky news», в отличие от турецких СМИ, которые предоставляют пол-ную и однозначную информационную поддержку, опирающиеся объективную, действительную позицию со дня начала войны, рас-сма-*

*триваеться предвзятость телеканалов США и Великобритании.*

*Ключевые слова: Карабах, информация, «CNN International», «Fox News», «BBC news», «Sky News»*